# Bir şəhid ailənin tarixçəsi



Teymur ƏHMƏDOV

**Xalqımızın böyük şəxsiyyətlərindən biri olan yazıçı, publisist, həkim, ictimai xadim Nəriman Nəcəf oğlu Nərimanov 150 il bundan öncə aprel ayında doğulub. Bu böyük şəxsiyyətin 150 illik yubileyinin qeyd edilməsi münasibəti ilə ölkə prezidenti cənab İlham Əliyev Sərəncam imzalayıb. Biz də öz növbəmizdə Nəriman Nərimanovun həyatını, yaradıcılığını, fəaliyyətini geniş araşdıran filologiya elmləri doktoru, professor Teymur Əhmədovun Nərimanovlar ailəsi ilə bağlı kədərli, amma gerçəyin özü olan sənədli əsərini oxucuların diqqətinə təqdim edirik.**

**Gülsüm xanım ağır əmək fəaliyyəti dövründə kolxoz və sovxoz fəhlələrinə kömək məqsədi ilə fürsət tapıb elmi-kütləvi kitabçalar da yazmışdır: "Vacib yem bazası"; "Silos kampaniyasında güclü dönüş yaradılması"; "Kollektivləşmə qadını azad edir"; "Qüllə, qala və şırımlar uğrunda" və sairə. Gülsüm xanım maraqlı uşaq nağıl və hekayələrini də burada, təbiətin ecazkar qoynunda müşahidə etdiyi həyat hadisələri əsasında qələmə almışdı.**

### Gülsüm xanım "Tərcümeyi-hal"ında yazır:

"1932-ci ildə institut məni Özbəkistana "Mübarək" sovxozuna növbəti ezamiyyətə göndərdi. Orada daha ağır şərtlər altında işləməli olurdum. Süni mayalanma ilə 70 kiloqramlıq qoyun yetişdirilən sovxozda işləyirdim və burada basmaçılar at oynadırdı. Vəziyyət elə idi ki, bir müddətdən sonra əsəblərim o qədər pozuldu ki, ciddi müalicə üçün təcili evə, Moskvaya qayıtmalı oldum".

Əsəbdən, soyuqdəymədən bir neçə xəstəliyin əlamətlərini güman edən Kreml Müalicə Mərkəzinin həkimləri onun ev şəraitində müalicəsini təyin etdilər. Gülsüm xanıma zehni və fiziki əməklə məşğul olmasına icazə verilmirdi. Tibb bacıları və müalicə həkiminin ciddi nəzarəti altında müalicə olunurdu.

***1938-ci ildə orta məktəbi uğurla başa vuran Nəcəfin Leninqrad tank məktəbinə daxil olması Gülsüm xanımı sevindirsə də, onun qəlbində nigarançılıq doğurdu. Gözünün ağı-qarası, bir balası ondan ayrı yaşayacaqdı. Evdə tənhalıq ilk gündən onu sıxırdı. Onun fikri-zikri oğlunun yanında idi. Nəcəf orta məktəbdə son zəngdən sonra sinif yoldaşları ilə çəkdirdiyi fotoşəkli böyütdürüb çərçivədə qonaq otağının divarından asmışdı. Gülsüm xanım hər gün şən ovqatla, iftixar duyğusu ilə fotoşəklə baxardı: 19 yaşlı, qarabuğdayı, ortaboy, gülərüzlü Nəcəfi bir dəstə sarışın həmyaşıdları necə də əhatə etmişdir.***

"Mənim balam, gözümün işığı - Nəcəfim" - sözlərini fikrindən keçirən ananın qəlbində xoş duyğu oyanır, şükranlıq edirdi. Oğlunun tez-tez məktub göndərməsi Gülsüm xanıma toxtaqlıq vermişdi...

O, məktubları maraq və riqqətlə oxuyanda sanki Nəcəfin şaqraq səsini də eşidirdi. Oğlu anasının səhhəti, gün-güzəranı ilə maraqlanırdı. Nigaran qalmaması üçün anasına öz gündəlik həyatı barədə xoş sözlər yazırdı.

1939-1940-cı illərdə Nəcəf Kiyev tank məktəbində təhsilini davam etdirdi. Burada da öz bilik və bacarığı ilə müdavimlər arasında hörmət qazanmışdı. Hərbi məktəbin ictimai işlərində fəal iştirak edirdi. Nəcəf Kiyevdən anasına göndərdiyi məktublardan birində yazırdı: "Ana, maşınların sirrini yaxşı bilməliyəm ki, rotam qabaqcıl olsun. Sonra Akademiyaya girəcəyəm. Mənə avtomobillər, traktorlar, tanklar, bu maşınların təmiri haqqında, benzin və sürtgü yağları haqqında ədəbiyyat göndər. Kitab mağazasına gedib avtomobil, traktor və yanacaq barəsində nə varsa al. Həmin kitabları səbirsizliklə gözləyirəm".

Nəcəfin hərbi texnikaya dərindən yiyələnmək cəhdi hədər getmirdi. Kiyev tank məktəbini bitirəndə ona verilən xasiyyətnamədə deyilirdi:

"Tapşırıqları layiqincə yerinə yetirir. Namusludur... Döyüş və nəqliyyat maşınlarını əla sürür. Komandirlik məharətinə mükəmməl yiyələnmişdir".

### 1940-cı ilin oktyabr ayında

Nəcəf Nərimanov Qərbi Ukraynaya hərbi tank diviziyasının polklarının birinə hərbi xidmətə göndərildi. Karpat dağlarının ətəyində havalar soyumuşdu, arabir qar yağır, yolu-izi görünməz edirdi. Nəcəf şəraiti olan yaraşıqlı, münasib bir otaqda qalırdı. Rəsmi qeydiyyatdan sonra otağında dincəlirdi. Onu qərargaha çağırdılar.

Ertəsi, istirahət günü hava açıq idi, qar yağmırdı. Nəcəf səhər yeməyindən sonra yeni heyətlə yaxında görünən qəsəbəyə doğru getdilər. Qarşıda dağətəyi meşəyə sığınmış yaraşıqlı qəsəbə evlərinin bacalarından tüstü burula-burula göyə sarı qalxırdı. Taxta hasara alınmış həyətlərdə su quyusu, ot tayaları, tövlə görünürdü. Qəsəbənin mərkəzində geniş meydan ətrafında dükanlar, bir az aralı döngədə ikimərtəbəli qəsəbə sovetinin binasının qülləsində iri qırmızı bayraq başıaşağı dayanmışdı.

**Hava soyuq idi. Əsgər çəkmələri altında donmuş qar xışıltısı eşidilirdi. Onlar mədəniyyət evinin qarşısından keçib restorana daxil oldular.**

**Səhər erkən yuxudan ayılan Nəcəf saata baxdı: ayağa qalxıb çaynikə su doldurub qızdırıcının üstünə qoydu. Yuyundu. Stolun üstündəki məktubu konvertə qoyub yeni ünvanı yazdı. Səhər yeməyindən sonra paltarını geyinib hərbi zavoda getdi. Nəcəf anasına üç gündən bir ətraflı məktubda öz təəssüratını, anasının suallarına cavabı yazırdı.**

### Zaman öz axarında idi

Gözlənilmədən yaz gəldi. Hava açılmışdı. Günəşin ılıq şəfəqlərindən dağətəyi yamaclar, sıx orman zümrüd örtüyə bürünmüşdü. Zakarpatiya füsunkar gözəlliyi ilə insanları heyrətləndirirdi. Talalardan əlvan rəngbərəng çiçəklərin xoş ətri gəlirdi. Meşədə quşlar səs-səsə vermişdi. Nəcəf məktubunda gözəl məkanı təfsilatı ilə təsvir etməyə çalışırdı ki, anasında bu yerlərə gəlmək həvəsi oyatsın. O, anasını görmək istəyirdi, bərk darıxmışdı. "Tank ustaları" kimi ixtisaslaşmış hərbçiləri hərdənbir şəhərə ezam edirdilər. Nəcəfin anasına yazdığı məktublardan bunu aydın görmək olar.

Qərbi Ukraynadan anasına yazırdı: "Bu gün istirahət günüdür, gözəl hava var. Buranın hər yerində kilsələr zəng çalır. Maraqlıdır, eləmi? Məni pan zabit deyə çağırırlar. Ev sahibi deyir ki,



yəhudilər Sovet hakimiyyəti qurulanadək çox əzab çəkmişlər. Axşam saat 8-dən sonra şəhərə çıxmağa onlara icazə verilmirdi. İndi hər şey dəyişmişdir. Onlar azadlığa çıxdıqlarına görə çox sevinirlər".

"Soyuqlar düşür. Lakin Leninqrad yaxınlığındakı güclü şaxtaları görəndən sonra buranın soyuqları vecimə deyil. Leninqradda 40 dərəcə şaxtada işləmək lazım gəlirdi. Ana, mənim mənzilimin eyvanından şəhər parkına gözəl mənzərə açılır. Hava bugünkü kimi aydın olanda Karpat dağlarının qarlı zirvələri yaxşı görünür. Bu dağlar Macarıstan sərhədinədək uzanır. Sağda Almaniya yerləşir".

"Yerləşdiyimiz şəhər bir az kiçikdir. Amma sənaye müəssisələri çoxdur. Bu şəhərin yaxınlığında kurort yerləri vardır. Ətraf dağlıqdır. Hər tərəfdə şam ağacları və qumluq görünür. Havası gözəldir...".

Nəcəfin yazdığı bu məktublar ananı məmnun etmirdi. O oğlu haqqında hər şeyi bilmək istəyirdi. 19 il pərvanə kimi başına dolanıb ərsəyə gətirdiyi oğlunun həyat tərzini arzu etdiyi kimi, düşündüyü kimi görmək istəyirdi. Onun narahatçılığı buradan qaynaqlanırdı.

### Gülsüm xanım Nəcəfə yazırdı:

***"Nəcəf, çox xahiş edirəm yaz, öz vaxtını necə keçirirsən, hansı qəzetləri, jurnalları, hansı kitabları alırsan, onları müntəzəmmi oxuyursan, haralara gedirsən, öz təhsilin ilə məşğul olursanmı? Mən məsələn, "Pravda" qəzetinə yazılmışam, Lenin kitabxanasına getmək üçün daimi biletim var. Çox yaxşı kitabxanadır... İndi mən tez-tez "Təşviqatçının yaddaşı" jurnalını alıram. Gözəl jurnaldır. Çox yaxşı materialları olur. Hərdən divar qəzetləri üçün materiallar yazanda istifadə etmək olur. "Oqonyok", "Krokodil", "Rabotnitsa" jurnallarını da oxuyuram... Əgər imkanım olsaydı, bütün günü kitabxanadan çıxmazdım. Qiraətxanada şəraitin özü adamı oxumağa vadar edir. Tam sakitlik hökm sürür. Təmiz hava, gözəl qayda vardır. Şəxsən mən kitab oxuyanda hər şeyi unudub dincəlirəm. Kitabxanaya gələn adamlar da maraqlı adamlardır, mədəni adamlardır. Onların çoxu tələbədir. Elmi-tədqiqat işçiləri üçün ayrıca salon var. Ora yalnız alimlər gedirlər. Tez-tez rayonumuzun partiya kabinetinə gedirəm. Beynəlxalq vəziyyət haqqındakı mülahizələrə qulaq asıram. Bəzən kinoya baxıram. Heyif ki, səhhətim yaxşı deyil...".***

Gülsüm xanımın yazdığı məktubun son cümləsi Nəcəfi narahat etdi. O, dərhal anasına cavab məktubunda onun Soçiyə müalicəyə getməsini təkidlə xahiş etdi.

Gülsüm xanım Soçiyə kurorta getdi. İki həftə ərzində sağlamlaşdı, əhval-ruhiyyəsi düzəldi. Sonra oğlundan sarı xəbərsizliyə dözə bilmədi, təcili Moskvaya qayıtdı. Soçidə oğluna yazdığı məktubun cavabını gözlədi. İki gün keçməmiş poçtalyon Gülsüm xanımı sevindirdi. Nəcəf bir neçə vərəqdə anasına məktub yazmışdı. Ana məktubu həyəcanla dönə-dönə oxudu, öpdü, sinəsinə sıxdı. Onun gözləri sevincdən yaşarmışdı.

Nəcəf öz məktubunda anasının Soçi kurortunda yaxşı müalicə olunmasına sevindiyini bildirir. Sonra bir aya yaxındır ki, Lvovda Tank diviziyasında xidmət etdiyini, yeni ünvanını xəbər verir. Uzun-uzadı Lvov şəhərinin təbiətini, ab-havasını, insanlarını tərifləyirdi. Ana, Lvova gəl-deyir - "Çox darıxmışam, tez yanıma gəl. Yola düşməzdən əvvəl teleqram göndər. Əgər qarşılaya bilməsəm, bir nömrəli tramvaya minib Lıçakovskaya küçəsinə get, müqəddəs Pyotr küçəsinin tinində düş. Bağın yanında 86 nömrəli ev görəcəksən. Oradan məni soruş. Lvovda bağlar çiçək açır, havalar gözəldir. Məni avqustun 20-də məzuniyyətə buraxacaqlarına söz vermişlər. Gəl, bir-iki ay yanımda qalarsan, Moskvaya bəlkə də birlikdə getdik".

Nəcəfin anasını israrla Lvova dəvət etməsi təkcə onun anası üçün darıxması, Lvovda bir-iki ay yanında anasına qayğı göstərməsində deyildi.

### O, evlənmək istəyirdi,

sevdiyi qızı anasına göstərmək, onun razılığını almaq istəyirdi. O, məktublarının birində Gülsüm xanıma yazmışdı: "İstəyirəm evlənəm... Gəl, səni yaxşı qızla tanış edəcəyəm. Çox mehriban qızdır. Pianinoda çalır, alman dilini əla bilir".

Nəcəfin birdən-birə bu fikrə gəlməsi Gülsüm xanımı narahat etmişdi. O, düşünürdü ki, Nəcəf Hərbi Akademiyanı bitirəndən sonra, onu Moskvada tanıdıqları bir ailənin qızı ilə evləndirmək daha yaxşı olar. Yoxsa... Oğlunun ailə məsələsində yanıla biləcəyindən çox qorxurdu. Gülsüm xanımın oğluna həyəcanla yazdığı məktubdan da bu aydın hiss olunur. Gülsüm xanım oğlu Nəcəfə yazırdı:

**"Məncə hələ tezdir, tələsirsən, qardaş. Axı, bu çay içmək, ya da nahar eləmək deyil. Evlənməyi asan iş sayma. Bu, həyat məsələsidir. O da, sən də müstəqil həyata hazır olmalısınız. Bir-birinizə hörmət etməli, birbirinizi səmimi sevməli, hər hansı bir anda, hər hansı bir şəraitdə o sənin yerində durmağı, sənə yoldaş, dost olmağı bacarmalıdır. Onun sənəti olmalıdır ki, səninlə əl-ələ verərək işləsin, yeni həyat qursun, başqalarından kömək gözləməsin.**

**(ardı olacaq)**